# Hikmət Nikbin-55

*Əziz oxucular, bu günlərdə şair-publisist Hikmət Nikbinin 55 yaşı tamam oldu.*

*Qeyd edək ki, Hikmət Nikbin 1966-cı il fevral ayının 16-da Salyan rayonunun Xalac kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1992-1997-ci illərdə Bakı Sosial İdarəetmə İnstitutunun (indiki Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası) Politologiya fakültəsində təhsil almış və politoloq ixtisasına yiyələnmişdir. Hal-hazırda Salyan rayon İ.İbrahimov adına Yuxarı Xalac kənd 1 saylı orta məktəbində tarix müəllimi vəzifəsində çalışır.*

*Erkən yaşlarından ədəbi yaradıcılığa başlayan Hikmət Nikbin mütəmadi olaraq mətbuatda şeirləri, esseləri, məqalələri ilə çıxışlar edir. Bir neçə kitabın həmmüəlliflərindəndir. 2009-2014-cü illərdə Salyanda fəaliyyət göstərən "Kürün töhfəsi" Ədəbi Birliyinin sədri olmuşdur.*

*Biz də "Ədəbi Turan" səhifəsi olaraq hörmətli şairimizi yubiley münasibətilə təbrik edib, yaradıcılığından nümunələri sizlərə təqdim edirik.*



***

Gecə- kipriyə sevgili,
Haçandı kipriyə gəlir...
Gedirik axşama, kipriyim,
Gözün aydın, yiyən gəlir.

Gözlərin axır, süzülür,
Sevinmək vaxtındı sənin...
Hamı ağ səhərindən yarıyır,
Gecən baxtındı sənin.

Bu eşq çox min ildi bilinmir,
Sizi kim görür
Tanrıyla məndən savayı...
Hamı Leyliyə, Məcnuna könkürür
Tanrıyla məndən savayı.

Eşq peyğəmbəriyəm axı,
Şükürlüdü Leylilər, Məcnunlar.
Ağıllı ağacların dəli sevgisindən
gövdəsini sındıran var...

Kipriyim- qanadlı mələk,
Çırpınır gözümün dibində...
Gecəsi, hardasan...?! Gəl görüm,
Kipriyim sakit durmur
mən adlı qəbrində...

***

Dəyişib bu ağac büsbütün...Tamam
doğrayıb töküblər barmaqlarını.
Ölən kölgəsinə buluddan qabaq
ağlamağı olub küləklərin də...

...baharı, payızı bilməyəcəkdir!
Quş da qanadına sevinməz artıq...
İllər sarğı verməz ağrılarına,
bir də, bir də baxmaz üzü göylərə?!

Təzədən üstünü, əynini görə,
öpə sabahını!...Axşamını da
səpə yarasına mürgüləməyə,
ehey, düzən göylər, ey ləpirli yer!

...boğulmaq - dənizin qara fikirli
olması deyilmiş, deyilmiş, adam!

***

Yaşadığı Günün yarımır hamı !
Hamı sabahından küsür, inciyir...
Torpağı bir az da sevindirməyə
oğurluq çiçəklər bitir payızda.

Mənim eyni adlı xatirələrim
yarımçıq gecəmdən qalan şəkildir.
Saat qurşaqları eyninə deyil ,
elə həmin yerdə, həmin boydadır .

...Göy də gizlətməyir özündəkini,
açır sinəsini yerə göstərir.
Dəli deyilmiş ki, təkcə küləklər,
dəliliyi varmış sevənlərin də!

İllər hasar çəkir ayaqlarından...
Saatın bir tayı harda gizlənib?

***

Nə çox möcüzən var imiş-
Əsanın əjdaha ölümü,
barmaqla ayın bölümü...
Qıy, birini də mənə ver,
Mən də ayı yeyim, Tanrı.

Su umuram, susamıram,
qəribədi...
Sıxcalasan suyum çıxmaz,
Bəs necə, nə təhər damıram,
qəribədi...

Bütün ayrılıqlar
gözdən, ayaqdan gəlir,
Sevinmədim məndə olanlara...
Götür nəyin varsa, Tanrı,
Ayrılıqlara dözə bilmirəm.

Ey-vay, 21-ci əsr!
Bütün əclaflığından
xəbərsiz adam kimi
Səndən tez öləcəm...

***

Dənizi keçməyə çəkməmdir gəmim...
Heç Göy üzündə də yalın deyiləm!
...Günlər tikiş vura torpaq ömrümə,
qalam üstündəcə ayaqlarımın!

Gizlənmiş kimidir ağaclar gecə,
uzunömürlüymüş xatirələri.
...Günəş də islada özünü məndə,
tanıya buludlar səhranın yolun!

Paytaxtı olmayan dövlət kimiyəm...
Yerin günləri də örtmür üstümü!
Gecələr çəkilir hamı özünə...
Dostlar, çəkilirəm mənsə hamıya!

...Məni tanımağa öyrənən payız,
sözü əllərindən öpən adamam!

***

Rənglərə sevilmək-
elə səhv eləməkdi,
İnsan səhv edəndə ölür...
...ölmür göyüylə, yeriylə,
Bir quru bədəndə ölür.

Öyrəşməyib yaza, qışa...
Başını qoyub balışa
gedir
saat əqrəblərinin
oyandığı yerdən
məkanın özünü dandığı yerə...
Nə yaxşı ki,
bizsiz deyil bu dünya...
Dənizlər balığa gərək olmazdı,
Heç Tanrı da gerçək olmazdı...

Bir vaxtı
biz də dəniz adamı idik...
Bir vaxtı bu dünyanın
səssiz-səmirsiz adamı idik.
...gözünüz aydın, ağaclar
sizi əkən var.

Gecənə bərəkət...
Utanıram özümdən,
Gündüzdü...
Kirpiklərimi ört,
gedim, Tanrı!..

...gedim, dünya mənim deyil,
Bürünməyə əynim deyil...
Ovcunu ver,
yığım ovcuna yağan yağışı,
İslanan var...
Daha dəniz adamı deyilik axı.
Ovcunu ver,
yığım ovcuna qayıdıb gələn qışı,
üşüyən var...
Daha qanı istiyik axı.

Dəyişmir qarın, yağışın,
...səhərin, axşamın.
Bizimsə dəyişir
əvvəlki özümüz,
...əvvəlki andımız, sözümüz,
Dəniz haqqı!
...Nədən, Tanrı?!

***

Qışın qanı axır qaranlıqlara...
Ağarır torpağın sinəsi dərddən!
Başını basdırıb buludlarda Ay
aparır özünü xəbərsiz kimi!

Qışın qanı axır qaranlıqlara...
Məni ayağıma qaytara səhər!
...Qapı-pəncərəni bağlayıb vaxt da
girib saatımın içində yatır!

Qışın qanı axır qaranlıqlara...
...Küçə itləri də yatır özündə.
Evlərə aparan yolları bağlı,
dibçək güllərinin eyninə deyil!

Qışın qanı axır qaranlıqlara...
Nəfəsi ömrünün tərkində hələ!

***

İnsan Tanrının alın yazısıdır!

***

İnsan suda öz əksini görəndə, özünün bir başqa həyatının da, bir başqa dünyasının da ola biləcəyini düşündü.

***

Biz Tanrını Allah (Yaradan) olduğuna inandırdıq.

***

Tanış olaq, özüm!

***

Bildikləri bilmədikləridir insanın!

***

Bütün vaxtsızlıqlar insanı kədərləndirir.

***

Ölüm insanın nəfəs yorğunluğudur!..

**Səhifəni hazırladı: Tural Turan**